# Baba BABAYEV - 70



Hörmətli Baba müəllim!

Sizi - AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, tənqidçi-ədəbiyyatşünas, nasir və pedaqoqu, Azərbaycan SSR Xalq maarifi əlaçısı, Qızıl qələm mükafatı laureatı, Qabaqcıl təhsil işçisini 70 illiyiniz münasibətilə ürəkdən təbrik edirik.

Siz 1952-ci ildə Zərdab rayonunun Məmmədqasımlı kəndində anadan olmusunuz. 1969-cu ildə Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki GDU) Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuş, 1973-cü ildə oranı bitirmisiniz. Əmək fəaliyyətinə 1973-cü ildə doğma kəndinizdə müəllim kimi başlamısınız. Elmi yaradıcılığa həmin ilin sentyabrında "Əkinçi" qəzetində dərc edilən İmadəddin Nəsiminin 600 illiyinə həsr olunan "Fədakar şair" məqaləsi ilə başlamısınız. 1986-cı ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna dissertant qəbul olunmuş, 1990-cı ildə "Abdulla Şaiqin bədii nəsri" mövzusunda namizədlik müdafiəsi etmisiniz. 49 ildir ki, dövri mətbuatda müxtəlif mövzulu elmi, pedaqoji, publisist yazılarla müntəzəm çıxış edirsiniz.

Siz Məmmədqasımlı kənd orta məktəbində direktor müavini, Zərdab rayon Təhsil Şöbəsində metodist, inspektor, Rayon Xalq Deputatları Sovetində təşkilat şöbə müdiri, Zərdab rayon İcra Hakimiyyətində referant, "İki sahil" qəzetində siyasi şöbə üzrə müxbir, Müstəqil Azərbaycan Universitetində 1-ci prorektor, jurnalistika kafedrasının müdiri, Azərbaycan Müəllimlər İnstitutunda aspirantura və magistratura şöbəsinin müdiri, Zərdab rayon Təhsil Şöbəsinin müdiri kimi məsul vəzifələrdə işləmisiniz. Yazılarınızda ədəbiyyatımızda müxtəlif konsepsiyalara istinad edir, hər bir sənətkarın yaradıcılığının formalaşmasındakı əsas amillər tarixi gerçəklik fonunda ədəbi-ictimai dəyər kəsb edir, bədii şüurun hərəkət istiqaməti müəyyənləşir.

2012-ci ildə "Azərbaycan realist nəsrində satiranın təşəkkülü, inkişaf mərhələləri və problemləri (1850-1920-ci illər)" mövzusunda doktorluq müdafiəsi etmisiniz. Yorulmaz tədqiqatçı kimi "Abdulla Şaiqin bədii nəsri" (1999), "Azərbaycan realist nəsrində satira" (2008), "Azərbaycan satirik nəsrinə dair araşdırmalar" (2009), "Həsən Seyidbəylinin bədii nəsri" (2010), "Abdulla Şaiqin nəsr yaradıcılığı" (2018), "Mirzə Fətəli Axundzadənin nəsr yaradıcılığı" (2021), "Əbdürrəhim bəy Haqverdiyevin məqalə, məktub və felyetonları" (2021) monoqrafiyalarını, "Ədəbi söz qalacaq" (2006), "Nur çeşməsi" (2003), "Qalacaqdır dünyada" (2001), "Azərbaycan ədəbiyyatı (Abbas Səhhətin və Abdulla Şaiqin seçilmiş əsərlərinin tərtibçisi və ön sözün müəllifi)" (2006), "Ədəbiyyat məsələləri" (2015), "Ədəbi etüdlər" (2018), "Ədəbiyyatımızın yaradıcılıq problemləri" (2021) adlı kitablarınızı nəşr etdirmisiniz.

"Səni axtarıram" (2017) və "Günahsız qatil" (2022) kitablarınızdakı yumoristik, lirik-psixoloji hekayələriniz geniş oxucu rəğbəti qazanmışdır.

Hörmətli qələm dostumuz Baba Babayev!

Sizi 70 illik yubileyiniz münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, sağlam həyat və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**